# Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin 2023-cü il ərzində fəaliyyətinə dair

# HESABAT

10 Beynəlxalq konfrans

13 Ölkədaxili konfrans

7 Dəyirmi masa

8 Seminar və mühazirələr

13 Nümayəndə heyəti ilə görüş

9 Nəşr

4 Təqdimat

1 Beynəlxalq yay və qış məktəbi

10 Televiziya verilişi

221 Məqalə

2 Əməkdaşlıq memorandumu

BAKI BEYNƏLXALQ MULTİKULTURALİZM MƏRKƏZİ
BAKU INTERNATIONAL MULTICULTURALISM CENTRE

**I bölmə**

**Ölkə daxilində konfranslar, dəyirmi masalar, seminarlar, tədbirlər, təqdimatlar, görüşlər, layihələr**

| № | Tədbirlə bağlı məlumatlar | Təşkilatçılar | Tapşırığın icrası üzrə məlumatlar Tarix və məkan | Tədbirin keçirilmə forması | Qeydlər |
|---|---|---|---|---|---|
| 1. | 20 Yanvar faciəsinin 33-cü ildönümünə həsr edilmiş anım tədbiri keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 19 yanvar, BBMM | Anım tədbiri | Tədbir Şəhidlər Xiyabanının ziyarəti, daha sonra dəyirmi masa müzakirəsi formatında keçirilmişdir. |
| 2. | Holokost qurbanlarının anım günü ilə bağlı tədbir keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Dillər Universiteti | 25 yanvar, BBMM | Anım tədbiri | Azərbaycan Dillər Universitetində keçirilən anım tədbirində İsrailin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri, Azərbaycanda fəaliyyət göstərən Yəhudi İcmalarının rəhbərləri, digər dini və etnik icmaların rəhbərləri iştirak etmişdir. |
| 3. | Xaçmaz Rayonunda “Azərbaycan multikulturalizm modeli” mövzusunda dəyirmi masa keçirilmiş və Mərkəz tərəfindən nəşr olunmuş kitablar yerli ictimaiyyətə təqdim olunmuşdur | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Xaçmaz Rayon İcra Hakimiyyəti | 26 yanvar, Xaçmaz rayonu Heydər Əliyev Mərkəzi | Dəyirmi masa | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi tərəfindən mütəmadi olaraq regionlarda konfrans, seminar, dəyirmi masa və təqdimatlar keçirilir. Xaçmaz rayonunda keçirilmiş dəyirmi masada müxtəlif dövlət qurumlarının yerli nümayəndəlikləri, dini və etnik icma rəhbərləri, rayon ağsaqqalları və gənclər iştirak etmişdir |

| | | | | | |
|---|---|---|---|---|---|
| **4.** | Niderlandda fəaliyyət göstərən İsrail Məlumat və Sənədləşdirmə Mərkəzinin (CIDI) direktoru xanım Hanna Luden ilə görüş keçirilmişdir | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 27 yanvar, BBMM | Görüş | Görüş zamanı Anti-semitizmlə mübarizə, İsrail və Azərbaycan xalqının başına gətirilmiş soyqırım cinayətlərinin birgə təbliği mövzusunda gələcək əməkdaşlıq müzakirə olunmuşdur |
| **5.** | İsraildə fəaliyyət göstərən Dağ Yəhudiləri Assosiasiyasının sədri cənab Pavel Elizarov ilə görüş keçirilmişdir | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 1 fevral, BBMM | Görüş | Görüş zamanı Azərbaycanda fəaliyyət göstərən Yəhudi İcmalarının layihələri, xaricdəki yəhudi təşkilatları ilə əlaqələri, qarşılıqlı əməkdaşlıq kimi mövzular müzakirə olunmuşdur |
| **6.** | Azərbaycan Dövlət Televiziyasının Əsas Məsələ Analitik Proqramında Mərkəz tərəfindən nəşr olunmuş “Həqiqətin Onomastikası” adlı kitabının ictimai müzakirəsi keçirilmişdir | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Dövlət Televiziyası | 2 fevral, AZTV | Təqdimat | Proqramın qonaqları BBMM İcraçı direktoru Rəvan Həsənov, Mərkəzin Himayəçilik Şurasının sədri Kamal Abdullayev, kitabın həmmüəllifləri olan professor İbrahim Bayramov və tarix üzrə fəlsəfə doktoru Nazim Mustafa olmuşdur |
| **7.** | “Xocalı soyqırımı” nın 31-cu ildönümü ilə bağlı anım tədbiri keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, | 23 fevral, BBMM | Anım tədbiri | Tədbirdə tarixçi alimlər, Xocalı şahidləri, Azərbaycanda yaşayan etnik icmaların və dini konfessiyaların rəhbərləri iştirak və çıxış etmişdir |
| **8.** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi və Avropa Yəhudiləri Dini İcmasının birgə təşkilatçılığı ilə “Purim” dini bayramı 5 fərqli tədbirlə qeyd edilib. Əsas tədbir | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Avropa Yəhudiləri Dini İcması | 9 mart, Marriot Hotel | Bayram tədbiri | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi mütəmadi olaraq etnik və dini icmalarla birgə xüsusi bayram tədbirləri təşkil edir. “Purim” bayramının Azərbaycanda |

| | | | | | |
|---|---|---|---|---|---|
| | Marriott Boulevard hotelində 600 nəfər qonağın iştirakı ilə keçirilib | | | | yaşayan yəhudilər üçün önəmini nəzərə alaraq Mərkəz Avropa Yəhudiləri Dini İcması ilə 600 nəfərlik böyük bayram tədbiri təşkil etmişdir |
| **9.** | "İslamofobiya irqçiliyin və ayrı-seçkiliyin spesifik forması kimi: Yeni qlobal və transmilli çağırışlar" mövzusunda beynəlxalq konfrans keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi, G20 Dinlərarası Dialoq Forumu | 15-16 mart, Fairmont Hotel | Beynəlxalq Konfrans | Konfransda 32 ölkədən alimlər, beynəlxalq təşkilatların ekspertləri, din xadimləri və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak etmiş, islamofobiya ilə mübarizədə fərqli yanaşma, Avropanın bəzi ölkələrində islamofobiyanın təzahürləri, dünya mediasında islamofobiya mövzularında müzakirələr aparmışdır. Beynəlxalq Konfrans 15 mart "Beynəlxalq İslamofobiya ilə Mübarizə Günü"nün birinci ildönümü çərçivəsində keçirilmişdir |
| **10.** | "Terror multikulturalizmə qarşı" layihəsi çərçivəsində "Azərbaycanlıların soyqrımı-1918" mövzusunda dəyirmi masa təşkil olunub | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, | 31 mart, BBMM | Dəyirmi masa | Dəyirmi masada tarixçi alimlərimiz, ölkəmizdə yaşayan etnik icmaların və fərqli dini icmaların rəhbərləri ermənilər tərəfindən Azərbaycanlılara qarşı törədilmiş sistematik etnik təmizləmə və soyqrım siyasətindən bəhs etmişlər |

| | | | | | |
|---|---|---|---|---|---|
| **11.** | ADA Universitetində Afrikanın 10 ölkəsinin UNESKO üzrə Milli Komissiyalarının baş katiblərinə “Azərbaycan multikulturalizm modeli” mövzusunda seminar təşkil olunmuşdur | ADA Universiteti, UNESKO üzrə Azərbaycan Milli Komissiyası, İnkişaf və Diplomatiya İnstitutu, Bakı Beynəlxalq Multikulturalimz Mərkəzi | 11 aprel, ADA Universiteti | Seminar | Proqramın əsas məqsədi Azərbaycanın Afrika ölkələri ilə UNESCO çərçivəsində mövcud olan əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsi, sözügedən regionda ölkəmiz barədə məlumatlılığın artırılması, eləcə də işğaldan azad olunmuş torpaqlarımızda bərpa-quruculuq işləri ilə bağlı məlumatların çatdırılmasıdır |
| **12.** | Ulu Öndər Heydər Əliyevin 100 illiyi çərçivəsində BDU-nun Hüquq fakültəsində “Heydər Əliyev və multikulturalizm” mövzusunda seminar təşkil edilmişdir | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Bakı Dövlət Universiteti | 12 aprel, Bakı Dövlət Universiteti | Seminar | Bakı Dövlət Universitetinin professor və tələbə kollektivinin iştirakı ilə keçirilmiş seminarda Mərkəzin icraçı direktoru Rəvan Həsənov Ulu Öndər Heydər Əliyevin Azərbaycanda multikulturalizm ənənələrini siyasi müstəviyə qaldırması mövzusunda çıxış etmişdir |
| **13.** | “Qafqaz Albaniyası: dini və sosial həyat” mövzusunda X Beynəlxalq Konfrans keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutu, Mənəvi Dəyərlərin Təbliği Fondu, Alban-Udi xristian icması | 14 aprel, Azərbaycan, Radisson Hotel | Beynəlxalq konfrans | Konfransın keçirilməsində məqsəd dünya albanşünaslığının görkəmli nümayəndələrini bir araya gətirməklə səmərəli elmi müzakirələr təşkil etməkdir. Qafqaz Albaniyasında xristianlığaqədərki dinlər, xristianlıq, İslam sivilizasiyası, sosial həyatın xüsusiyyətləri mövzularını əhatə edən konfransda “Tarixi coğrafiya, əhali |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | və sosial həyat", "Qafqaz Albaniyası xristianlığaqədərki və xristianlıq dövründə", "Qafqaz Albaniyası: coğrafi paralellər, iqtisadi və mədəni həyat", "Qafqaz Albaniyası: məbədlər və abidələr" bölmə iclaslarında müzakirələr aparılıb. Bölmə iclaslarında Türkiyə, Cənubi Koreya, Rusiya, İtaliya, Almaniya, Gürcüstan, Böyük Britaniya, Norveç və Litvanı təmsil edən tədqiqatçı alimlər, mütəxəssislər Albaniya tarixinin müxtəlif məsələləri ilə bağlı məruzələrlə çıxış etmişlər |
| **14.** | Pakistan–Azərbaycan Məzunları Birliyinin qurucusu, strateji kommunikasiyalar üzrə pakistanlı ekspert Qayser Nəvvab ilə görüş keçirilmişdir | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 5 may, BBMM | Görüş | Görüş zamanı qarşılıqlı əməkdaşlıq, Pakistan mediyasında Azərbaycan multikulturalizm modeli ilə əlaqəli məqalələrin nəşr olunması mövzusu müzakirə olunmuşdur |
| **15.** | Fransanın "Musulmans en France" xəbər portalının təsisçisi və baş redaktoru Jan Mişel Brunla görüş keçirilmişdir | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 5 may, BBMM | Görüş | Görüş zamanı Fransadan olan ictimai xadim Jan Mişel Brunun Azərbaycan multikulturalizmi ilə bağlı yazmaq istədiyi fransız dilində nəşr olunması planlaşdırılan kitabı haqqında müzakirələr aparılmışdır |

| | | | | | |
|---|---|---|---|---|---|
| **16.** | Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar “Heydər Əliyev və Azərbaycançılıq-100” mövzusunda konfrans keçirilmişdir | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Dillər Universiteti | 8 may, Azərbaycan Dillər Universiteti | Konfrans | Konfransda Azərbaycan Dillər Universitetinin professor və tələbə kollektivi, Azərbaycanda fəaliyyət göstərən etnik və dini icmaların rəhbərləri və müxtəlif dövlət qurumlarının rəsmi şəxsləri iştirak etmişdir |
| **17.** | Özbəkistanın Ürgənç Dövlət Universitetinin nümayəndə heyəti ilə görüş keçirilmişdir | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 16 may, BBMM | Görüş | Ürgənc Dövlət Universitetinin Filologiya fakültəsinin dekanı Zəfər Adilovun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş zamanı “Azərbaycan Multikulturalizmi” fənninin universitetdə tədrisi, müəllim və tələbə mübadiləsi mövzuları müzakirə olunmuşdur |
| **18.** | ABŞ-ın Yuta ştatındakı "İsa Məsihin Son Zaman Müqəddəsləri Kilsəsi"nin rəhbəri Devid Bednarın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 25 may, BBMM | Görüş | Görüş zamanı qonaqlara Mərkəzin fəaliyyəti haqqında ətraflı məlumat verilib, Azərbaycandakı multikultural və tolerant mühit, dövlət başçısı İlham Əliyev tərəfindən həyata keçirilən multikulturalizm siyasəti, eləcə də Azərbaycanın multikulturalizm modeli haqqında danışılıb. Azərbaycanda multikultural dəyərlərin əsrlərdən bəri son dərəcə önəmli yer tutduğunu, burada müxtəlif xalqların və mədəniyyətlərin nümayəndələrinin heç bir ayrı-seçkiliyə məruz qalmadan yaşadıqları diqqətə çatdırılıb |

| | | | | | |
|---|---|---|---|---|---|
| **19.** | İndoneziyanın İslam Təşkilatı “Nahdlatul Ulama”nın nümayəndə heyəti ilə görüş keçirilmişdir | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 8 iyun, BBMM | Görüş | Görüş zamanı dinlərarası dialoq istiqamətində iki qurum arasında gələcək əməkdaşlıq və qarşılıqlı layihələrin icrası ilə bağlı məsələlər müzakirə olunmuşdur |
| **20.** | “Heydər Əliyev İli” çərçivəsində Lənkəran şəhərində “Heydər Əliyev Azərbaycan multikulturalizminin siyasi banisidir” mövzusunda regional konfrans keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Lənkəran Rayonu İcra Hakimiyyəti | 16 iyun, Lənkəran şəhəri, Heydər Əliyev Mərkəzi | Konfrans | Konfransın keçirilməsində məqsəd Ulu Öndər Heydər Əliyevin çoxspektrli fəaliyyəti, hakimiyyətə ikinci dəfə gəlişindən sonra “Azərbaycançılıq” məfkurəsinin yenidən təşəkkül tapmasında rolu, xüsusən də ölkəmizdə əsrlərdən bəri əmin-amanlıq şəraitində birgə yaşayan müxtəlif etnik qruplar və konfessiyalar üçün yaradılan şərait, bu gün də milli və dini icmalara göstərilən dövlət qayğısı barədə geniş maarifləndirmə işləri aparmaqdır. Qeyd olunan regional konfranslar cari ildə silsilə xarakterli olaraq təşkil olunmuşdur |
| **21.** | “Heydər Əliyev İli” çərçivəsində Balakən rayonunda “Heydər Əliyev Azərbaycan multikulturalizminin siyasi banisidir” mövzusunda regional konfrans keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Balakən Rayon İcra Hakimiyyəti | 24 iyun, Balakən rayon Heydər Əliyev Mərkəzi | Konfrans | Regional konfransda rayonda fəaliyyət göstərən dövlət qurumlarının nümayəndələri, rayon ağsaqqalları, dini icma rəhbərləri və gənclər iştirak etmişdir. Tədbirdə “Heydər Əliyev və multikulturalizm” mövzusunda film də nümayiş etdirilmişdir. Regional konfrans “Heydər Əliyev İli” çərçivəsində Mərkəz tərəfindən təşkil olunmuş silsilə tədbirlər formatında keçirilib |

| | | | | | |
|---|---|---|---|---|---|
| **22.** | Belçika Parlamentinin deputatı Maykl Freylik ilə görüş keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 6 iyul, BBMM | Görüş | Belçika Parlamentinin yəhudi əsilli deputatı Maykl Freylik ilə görüş zamanı ona ölkəmizdə olan multikultural vəziyyət, yəhudilərin həyat tərzi və yəhudi icmalarının fəaliyyəti haqqında ətraflı məlumat verilmişdir |
| **23.** | “Heydər Əliyev İli” çərçivəsində Quba şəhərində “Heydər Əliyev Azərbaycan multikulturalizminin siyasi banisidir” mövzusunda regional konfrans keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Quba Rayon İcra Hakimiyyəti | 6 iyul, Quba şəhəri, Heydər Əliyev Mərkəzi | Konfrans | Regional konfransda rayonda fəaliyyət göstərən dövlət qurumlarının nümayəndələri, rayon ağsaqqalları, dini icma rəhbərləri və gənclər iştirak etmişdir. Tədbirdə “Heydər Əliyev və multikulturalizm” mövzusunda film də nümayiş etdirilmiş, Dağ Yəhudiləri Dini İcmasının sədri Melix Yevdayev məruzə ilə çıxış etmişdir. Regional konfrans “Heydər Əliyev İli” çərçivəsində Mərkəz tərəfindən təşkil olunmuş silsilə tədbirlər formatında keçirilib |
| **24.** | “Heydər Əliyev İli” çərçivəsində Şamaxı şəhərində “Heydər Əliyev Azərbaycan multikulturalizminin siyasi banisidir” mövzusunda regional konfrans keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Şamaxı Rayon İcra Hakimiyyəti | 21 iyul, BBMM | Konfrans | Regional konfransda rayonda fəaliyyət göstərən dövlət qurumlarının nümayəndələri, rayon ağsaqqalları, dini icma rəhbərləri və gənclər iştirak etmişdir. Tədbirdə “Heydər Əliyev və multikulturalizm” mövzusunda film nümayiş etdirilmişdir. Regional konfrans “Heydər Əliyev İli” çərçivəsində Mərkəz tərəfindən təşkil olunmuş silsilə tədbirlər formatında keçirilib |

| | | | | | |
|---|---|---|---|---|---|
| **25.** | Almaniya Müsəlmanları Mərkəzi Şurasının prezidenti Ayman Matsyek ilə görüş keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 25 iyul, BBMM | Görüş | Görüş zamanı xüsusi ilə son dövrlərdə Avropada artan islamofobiya hallarından narahatlıq, bununla mübarizədə birgə əməkdaşlıq mövzuları müzakirə olunub. |
| **26.** | “Şimali və Şərqi Qafqaz yəhudilərinin irsi və mədəniyyəti” mövzusunda beynəlxalq elmi konfrans keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Bar-İlan Universitetinin nəzdində Dahan Mərkəzi (İsrail), Azərbaycan Dillər Universiteti, Azərbaycan İlahiyyat İnstitutu, Akademik Aşkelon Kolleci (İsrail), Dağ Yəhudilərinin Beynəlxalq Xeyriyyə Fondu “STMEGI” | 31 avqust – 1 sentyabr, BBMM, Azərbaycan Dillər Universiteti | Beynəlxalq konfrans | Konfransda Azərbaycan, İsrail, Rusiya, ABŞ, Fransa və digər ölkələrdən 60-dan çox tədqiqatçı-alim iştirak edib. İki gün davam edən beynəlxalq konfransın 13 panel iclasında “Adət və ənənələr”, “Azərbaycanda və Yəhudi İcmasında multikulturalizm”, “Milli və etnik kimlik”, “Sionist fəaliyyət və Qafqazdan immiqrasiya”, “İsrail-Azərbaycan münasibətləri”, “Bakıdakı Yəhudi İcması: Tarix və Cəmiyyət”, “Dil və kimlik”, “Qafqaz yəhudiləri Müasir dövrdə”, “Dağ Yəhudiləri ikinci dünya müharibəsi dövründə”, “Mədəniyyət və incəsənət”, “Yəhudilər Azərbaycanda”, “Qafqaz yəhudilərinin tədqiqi mənbələri” mövzularında geniş müzakirələr aparılıb |
| **27.** | “Heydər Əliyev İli” çərçivəsində İsmayıllı rayonunda “Heydər Əliyev Azərbaycan multikulturalizminin siyasi | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, İsmayıllı | 11 sentyabr, İsmayıllı rayonu, Heydər Əliyev Mərkəzi | Konfrans | Regional konfransda rayonda fəaliyyət göstərən dövlət qurumlarının nümayəndələri, rayon ağsaqqalları, dini icma rəhbərləri |

| | | | | | |
|---|---|---|---|---|---|
| | banisidir" mövzusunda regional konfrans keçirilib | Rayon İcra Hakimiyyəti | | | və gənclər iştirak etmişdir. Tədbirdə "Heydər Əliyev və multikulturalizm" mövzusunda film nümayiş etdirilmişdir. Regional konfrans "Heydər Əliyev İli" çərçivəsində Mərkəz tərəfindən təşkil olunmuş silsilə tədbirlər formatında keçirilib |
| **28.** | "Osmanlı elm və mədəniyyətinə Azərbaycan töhfəsi" kitabının təqdimatı keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 12 sentyabr, BBMM | Təqdimat | Təqdim olunan kitab ön söz, giriş, üç fəsil və nəticədən ibarətdir. Girişdə Azərbaycan əsilli Osmanlı müəlliflərin anlayışı açıqlanır. Bunun "Azərbaycan məktəbi" çərçivəsindəki funksional rolu izah edilir. Birinci fəsildə "Azərbaycan məktəbi"nin yaranma tarixi, bu tarixin arxa planı və məşhur nümayəndələrindən bəhs olunur. İkinci fəsildə Azərbaycan əsilli alim və mütəfəkkirlərin hansı səbəbə görə Osmanlı dövlətinə köçməsi, Osmanlıda elm, Anadoluda dini-mistik vəziyyət kimi mövzular araşdırılır. Üçüncü fəsildə kitabın əsas məzmun və mahiyyətini təşkil edən Şirvan, Naxçıvan, Qarabağ əsilli Osmanlı müəlliflərinin həyat və yaradıcılığı təqdim olunur. Təqdimatda Türkiyə Respublikasının Azərbaycandakı Səfirliyinin mədəniyyət müşaviri professor Muhittin Macid də iştirak etmişdir |

| | | | | | |
|---|---|---|---|---|---|
| **29.** | “Heydər Əliyev İli” çərçivəsində Masallı rayonunda “Heydər Əliyev Azərbaycan multikulturalizminin siyasi banisidir” mövzusunda regional konfrans keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Masallı Rayon İcra Hakimiyyəti | 2 oktyabr, Masallı Rayonu, Heydər Əliyev Mərkəzi | Konfrans | Regional konfransda rayonda fəaliyyət göstərən dövlət qurumlarının nümayəndələri, rayon ağsaqqalları, dini icma rəhbərləri və gənclər iştirak etmişdir. Tədbirdə “Heydər Əliyev və multikulturalizm” mövzusunda film nümayiş etdirilmişdir. Regional konfrans “Heydər Əliyev İli” çərçivəsində Mərkəz tərəfindən təşkil olunmuş silsilə tədbirlər formatında keçirilib |
| **30.** | Çeçenistan Pedaqoji Universitetinin prorektoru professor Tamara Atayevanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 3 oktyabr, BBMM | Görüş | Görüş zamanı “Azərbaycan multikulturalizmi” fənninin Çeçenistan Pedaqoji Universitetində də tədrisi layihəsi müzakirə olunub. Eyni zamanda tələbə və müəllimlərin mübadiləsi, birgə proyektlərin işlənməsi mövzusunda danışıq aparılıb |
| **31.** | Kərkük Mədəniyyət Dərnəyinin rəhbəri, İraq Türkmən Jurnalistlər Cəmiyyətinin sədri Şəmsəddin Kuzəçi ilə görüş keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 3 oktyabr, BBMM | Görüş | Görüş zamanı İraq Türkmənləri ilə ortaq mədəni irsin araşdırılması, bu istiqamətdə konfransların keçirilməsi, birgə layihələrin işlənməsi mövzuları müzakirə olunmuşdur |
| **32.** | “Heydər Əliyev İli” çərçivəsində Şəki şəhərində “Heydər Əliyev Azərbaycan multikulturalizminin siyasi banisidir” | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Şəki şəhər İcra Hakimiyyəti | 16 oktyabr, BBMM | Konfrans | Regional konfransda Şəki şəhərində fəaliyyət göstərən dövlət qurumlarının nümayəndələri, rayon ağsaqqalları, dini icma rəhbərləri |

| | | | | | |
|---|---|---|---|---|---|
| | mövzusunda regional konfrans keçirilib | | | | və gənclər iştirak etmişdir. Tədbirdə “Heydər Əliyev və multikulturalizm” mövzusunda film nümayiş etdirilmişdir. Regional konfrans “Heydər Əliyev İli” çərçivəsində Mərkəz tərəfindən təşkil olunmuş silsilə tədbirlər formatında keçirilib |
| **33.** | Çeçenistan Pedaqoji Universitetində “Azərbaycan multikulturalizm modeli” mövzusunda seminar keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Çeçenistan Pedaqoji Universiteti | 17 oktyabr, Real vaxt rejimi (Online) | Seminar | Seminarda Çeçenistan Dövlət Pedaqoji Universitetinin elmi və beynəlxalq fəaliyyət üzrə prorektoru, dosent Tamara Atayeva, rus dili kafedrasının müdiri dosent Raisa Buralova , universitetin professor-müəllim heyəti və tələbələr iştirak ediblər. |
| **34.** | “Əli və Nino” kitabının Tat dilində nəşrinin təqdimatı keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 18 oktyabr, BBMM | Təqdimat | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi hər il Azərbaycanda yaşayan azsaylı xalqların dillərində müxtəlif kitablar nəşr edir. Bu seriyadan növbəti nəşr “Əli və Nino” kitabının Tat dilində nəşri olmuşdur. Qeyd olunan kitab daha əvvəl Mərkəz tərəfindən Ləzgi, Talış və Udi dillərinə də tərcümə olunaraq nəşr edilib. |
| **35.** | “İraq Türkmanları və türk dünyası: Tarixi yaddaşın bərpası” adlı beynəlxalq elmi konfrans keçirilmişdir | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Beynəlxalq | 30 oktyabr, Bakı, Həyat Regency Hotel | Beynəlxalq Konfrans | Konfransın keçirilməsində məqsəd İraq türkmanları ilə ortaq mədəni irsimizin araşdırılması, elmi ictimaiyyət arasında bağların |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | Münasibətlərin Təhlili Mərkəzi | | | qurulmasıdır. Konfransda Azərbaycanla yanaşı İraq, Türkiyə və Suriyadan alimlər, türkman dərnəklərinin rəhbərləri, millət vəkilləri, jurnalistlər iştirak etmişdir. Tədbirdə eyni zamanda İraqın Azərbaycandakı müvəqqəti işlər vəkili Maki Ressan Al-Mamori də iştirak və çıxış etmişdir |
| **36.** | "Heydər Əliyev İli" çərçivəsində Gəncə şəhərində "Heydər Əliyev Azərbaycan multikulturalizminin siyasi banisidir" mövzusunda regional konfrans keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Gəncə Şəhər İcra Hakimiyyəti | 3 noyabr, Gəncə şəhəri, Heydər Əliyev Mərkəzi | Konfrans | Regional konfransda şəhərdə fəaliyyət göstərən dövlət qurumlarının nümayəndələri, rayon ağsaqqalları, dini icma rəhbərləri və gənclər iştirak etmişdir. Tədbirdə "Heydər Əliyev və multikulturalizm" mövzusunda film nümayiş etdirilmişdir. Regional konfrans "Heydər Əliyev İli" çərçivəsində Mərkəz tərəfindən təşkil olunmuş silsilə tədbirlər formatında keçirilib |
| **37.** | "8 noyabr – Zəfər Günü"nə həsr olunmuş dəyirmi masa keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 7 noyabr, BBMM | Dəyirmi masa | Tədbirdə Azərbaycanda yaşayan azsaylı xalqların icma rəhbərləri, dini icmaların rəhbərləri, şəhid ailələri, qazilər və alimlər iştirak etmişdir. Dəyirmi masada Mərkəz tərəfindən hazırlanmış "Biz birlikdə güclüyük" adlı sənədli film də nümayiş etdirilib |

| | | | | | |
|---|---|---|---|---|---|
| **38.** | Qazaxıstanın "Tətbiqi Etnosiyasi Araşdırmalar İnstitutu"nun direktoru Talgat Kaliyev ilə görüş keçirilmişdir | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 21 noyabr, BBMM | Görüş | Görüş zamanı hər iki qurum arasında təcrübə mübadiləsi, imzalanmış anlaşma memorandumuna uyğun fəaliyyət planları müzakirə olunub |
| **39.** | Azərbaycan “Tədqiq və Tətəbbö Cəmiyyəti”nin 100 illiyinə həsr olunmuş konfrans keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycan Dövlət İdarəçilik Akademiyası | 24 noyabr, BBMM | Konfrans | Konfransda tarixçi alimlərlə yanaşı Azərbaycanın Bosniya və Herseqovinadakı səfiri, professor Vilayət Quliyev, Diplomat, tarix elmləri doktoru Həsən Həsənov, Azərbaycan “Tədqiq və Tətəbbö Cəmiyyəti”nin araşdırmaçısı, Azərbaycan Dillər Universitetinin professoru Həmidə Əliyeva, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi Tamilla Kərimova, diplomat Cavanşir Axundov, BBMM-in müşaviri Aytən Qəhrəman, AMEA akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun əməkdaşı, tarix elmləri doktoru Solmaz Tohidi-Rüstəmova Tətəbbö cəmiyyətinin Azərbaycanın elm tarixində oynadığı vacib roldan danışmışlar |
| **40.** | “Heydər Əliyev İli” çərçivəsində Naxçıvan Muxtar Respublikasında “Heydər Əliyev Azərbaycan multikulturalizminin siyasi banisidir” mövzusunda regional | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Naxçıvan Muxtar Respublikasında | 4 dekabr, Naxçıvan Muxtar Respublikası, Heydər Əliyev Mərkəzi | Konfrans | Regional konfransda Muxtar Respublikada fəaliyyət göstərən dövlət qurumlarının nümayəndələri, rayon ağsaqqalları, dini icma rəhbərləri |

| | | | | | |
|---|---|---|---|---|---|
| | konfrans keçirilib | Azərbaycan Respublikasının Prezidentinin səlahiyyətli nümayəndəliyi | | | və gənclər iştirak etmişdir. Tədbirdə “Heydər Əliyev və multikulturalizm” mövzusunda film nümayiş etdirilmişdir. Regional konfrans “Heydər Əliyev İli” çərçivəsində Mərkəz tərəfindən təşkil olunmuş silsilə tədbirlər formatında keçirilib |
| **41.** | “Heydər Əliyev İli” çərçivəsində Qəbələ Rayonunda “Heydər Əliyev Azərbaycan multikulturalizminin siyasi banisidir” mövzusunda regional konfrans keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Qəbələ Rayon İcra Hakimiyyəti | 24 dekabr, Qəbələ Rayonu, Heydər Əliyev Mərkəzi | Konfrans | Regional konfransda rayonda fəaliyyət göstərən dövlət qurumlarının nümayəndələri, rayon ağsaqqalları, dini icma rəhbərləri və gənclər iştirak etmişdir. Tədbirdə “Heydər Əliyev və multikulturalizm” mövzusunda film də nümayiş etdirilmişdir. Regional konfrans “Heydər Əliyev İli” çərçivəsində Mərkəz tərəfindən təşkil olunmuş silsilə tədbirlər formatında keçirilib |
| **42.** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi tərəfindən 2023-cü ildə çap edilmiş nəşrlərin təqdimatı keçirilmişdir | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 27 dekabr, BBMM | Təqdimat | Cari ildə Mərkəz tərəfindən 8 yeni nəşr çap edilmişdir. Müxtəlif dillərdə çap olunan bu nəşrlər daha çox xarici ölkələrin universitet və kitabxanalarına, diplomatik nümayəndəliklərə paylanır, eyni zamanda elektron baza sitemlərinə yerləşdirilir |

| | | | | | |
|---|---|---|---|---|---|
| **43.** | Ulu Öndər Heydər Əliyevin multikulturalizm siyasəti istiqamətində fəaliyyətini göstərən iki sənədli film hazırlanmış və sosial mediada yayılmışdır | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | dekabr | Sənədli filmlər | Sənədli filmlər Ulu Öndər Heydər Əliyevin irsinin öyrənilməsi, tolerantlıq və multikulturalizm istiqamətində Heydər Əliyevin islahatlarının xüsusilə gənc nəslə çatdırılması baxımından önəmli vasitədir. Nəzərə almaq lazımdır ki, bu filmlər daha çox sosial mediada, gənclərin daha çox olduğu platformalarda yayılır |
| **44.** | Azərbaycanda yaşayan azsaylı xalqların mədəniyyətlərini təqdim etmək məqsədi ilə etnik icmalarla fəaliyyətin təşkil olunması | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | İl ərzində | Görüşlər | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin fəaliyyət istiqamətlərindən biri də ölkəmizdə yaşayan azsaylı xalqların mədəniyyət və dillərinin qorunması istiqamətində layihələr həyata keçirməkdir. Bu istiqamətdə ölkəmizdə fəaliyyət göstərən etnik icmaların nümayəndələri ilə sıx təmaslar qurulmuş və birgə fəaliyyət göstərilməkdədir |
| **45.** | İşğaldan azad olunmuş ərazilərdə Əlaqələndirmə Qərargahının İdarələrarası Mərkəzinin Elm, təhsil və mədəniyyət məsələləri üzrə işçi qrupunun tərkibində fəaliyyətin təşkil olunması | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | İl ərzində | | İşçi qrupunun tərkibində dəfələrlə işğaldan azad olunmuş ərazilərimizə səfərlər təşkil olunmuş, dağıdılmış və saxtalaşdırılmağa cəhd olunmuş mədəni irs nümunələrinə baxış keçirilmiş, hesabatlar və arayışlar hazırlanmışdır. Bu fəaliyyət yeni layihələrin formalaşmasına təkan olmuşdur |

**II bölmə**

**Beynəlxalq konfrans, dəyirmi masa, seminar və tədbirlər**

| № | Tədbirlə bağlı məlumatlar | Təşkilatçılar | Tapşırığın icrası üzrə məlumatlar Tarix və məkan | Tədbirin keçirilmə forması | Qeydlər |
|---|---|---|---|---|---|
| **1.** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Şimali Makedoniyanın Skopye şəhərində keçirilmiş ATƏT regionunda antisemitizm ilə mübarizə mövzusunda konfransda təmsil olunub | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 6-7 fevral Şimali Makedoniya (Skopye) | Konfrans | Konfransda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin müşaviri Aytən Qəhrəman iştirak edərək ATƏT bölgəsində artmaqda olan antisemitizm və islamofobiya haqqında və eyni zamanda artan zorakı ekstremizm halları mövzusunda çıxış etmişdir |
| **2.** | “Mədəni müxtəliflikdə birlik: Azərbaycan nümunəsində” mövzusunda XIII Beynəlxalq Multikulturalizm Qış Məktəbi təşkil edilmişdir | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 20-27 fevral Azərbaycan (Bakı, Quba, Qusar, Xaçmaz) | Beynəlxalq Qış Məktəbi | XIII Beynəlxalq Multikulturalizm Qış Məktəbində Azərbaycan, Türkiyə, Braziliya, Rumıniya, Almaniya, Fələstin, Rusiya, Amerika Birləşmiş Ştatları, Gürcüstan, Pakistan, İraq, Bolqarıstan, Mozambik, Mərkəzi Afrika Respublikası, Suriya, Şri-Lanka, Çin və Yaponiya kimi ölkələrin aparıcı universitetlərindən 25 tələbə iştirak etmişdir |

| | | | | | |
|---|---|---|---|---|---|
| **3.** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin və ABŞ-ın Stirlinq Fondunun təşkilatçılığı ilə Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Sahib Nağıyev, Azərbaycandakı Dağ yəhudiləri icmasının sədri Milix Yevdayev, Alban-Udi xristian dini icmasının sədri Robert Mobili, Azərbaycandakı Katolik icmasının rəhbəri Yepiskop Vladimir Feketenin birgə Yutah Ştatına işgüzar səfər təşkil edilmişdir | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Stirlinq Fondu | 28 fevral - 4mart ABŞ | Görüşlər, konfrans və mühazirələr | Səfər çərçivəsində Yutah Ştatının senatının sədri cənab Stüard Adams, Yutah Ştatının vitse-qubernatoru xanım Diedre Henderson, İsa Məsih və Sonuncu Gün Müqəddəsləri Kilsəsinin prezidenti Rassel Nelson ilə görüşlər keçirmişdir. Eyni zamanda Azərbaycan nümayəndə heyəti Senatın iclasında təqdim olunmuşdur. ABŞ-ın nüfuzli Briqam Yanq Universitetinin rəhbərliyi ilə görüşdükdən sonra nümayəndə heyəti Azərbaycan dilinin tədris olunduğu tələbələrlə görüşmüş və universitetinin professor və tələbələri üçün konfrans təşkil edilmişdir. Bundan başqa səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Yutah Ştatında olan məscid, sinaqoq və kilsələri də ziyarət etmiş və yerli insanlarla görüşlər keçirmişdir. Məscid və sinaqoqda nümayəndə heyətinin gəlişi ilə əlqadar ibadət və çıxışlar təşkil edilmişdir |
| **4.** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ilə Qazaxıstanın Tətbiqi Etnosiyasi Araşdırmalar İnstitutu arasında əməkdaşlıq memorandumu imzalanmışdır | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Qazaxıstanın Tətbiqi Etnosiyasi Araşdırmalar İnstitutu | 11 aprel Qazaxıstan (Astana) | Memorandum | Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Qazaxıstan Respublikasına rəsmi səfəri çərçivəsində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi ilə Qazaxıstanın Tətbiqi |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | Etnosiyasi Araşdırmalar İnstitutu arasında elmi və mədəni əməkdaşlıq haqqında Memorandum imzalanıb. Memorandumun məqsədi elmi-tədqiqat sahəsində, ictimai həmrəylik və vəhdət sahəsinə metodoloji və ekspert dəstəyinin göstərilməsi üzrə əməkdaşlığın inkişaf etdirilməsidir. Memoranduma əsasən elmi-tədqiqat işləri sahəsində əməkdaşlıq ediləcək - elmi şöbələr arasında əlaqələr qurulacaq, qarşılıqlı şəkildə razılaşdırılmış mövzular üzrə birgə araşdırmalar aparılacaq, qarşılıqlı səfərlər təşkil olunacaq, onlayn və oflayn formatlarda elmi seminarlar, təlimlər, konfranslar, dəyirmi masalar keçiriləcək |
| **5.** | “Heydər Əliyev İli” elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı çərçivəsində. Mərkəz ilin sonuna qədər Azərbaycan multikulturalizmi” fənninin xarici ölkə universitetlərində tədrisi layihəsinin icra olunduğu ali təhsil müəssisələrində - Ural Federal Universiteti (Rusiya), İvan Cavaxaşvili adına Tbilisi Dövlət | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, | 27 fevral - dekabr<br><br>Rusiya Federasiyası, Gürcüstan, Polşa, Yaponiya, Türkiyə, Bolqarıstan, Malaziya, İndoneziya, Rumıniya, Braziliya | Seminar | “Azərbaycan Multikulturalizmi” fənninin tədris olunduğu ölkələrdə təşkil olunmuş seminarlarda xarici universitetlərin müəllim və tələbələri iştirak etmişdir. Seminarlarda Ulu Öndər Heydər Əliyevin multikulturalizm sahəsində fəaliyyətini əks etdirən filmin də təqdimatı keçirilmişdir |

| | | | | | |
|---|---|---|---|---|---|
| | Universiteti (Gürcüstan), Vrotslav Universiteti (Polşa), Hokkaydo Universiteti (Yaponiya), Erciyəs Universiteti (Türkiyə), Müqəddəs Kliment Oxridski adına Sofiya Universiteti (Bolqarıstan), Malaziya Universiteti (Malaziya), Gadjah Mada Universiteti (İndoneziya), Aleksandr İohan Kuzi Universiteti (Rumıniya), Paraiba Federal Universiteti (Braziliya) Ulu Öndər Heydər Əliyevə həsr olunan seminarlar keçirmişdir | | | | |
| **6.** | "Beynəlxalq sülhün, dayanıqlı sosial-iqtisadi inkişafın əldə olunmasında dini liderlərin rolu" mövzusunda keçirilən Beynəlxalq Konfransda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi təmsil olunub | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Pakistan Sülh Barışıq və Yenidənqurma Araşdırmaları Mərkəzi, İslam Araşdırmaları İnstitutu, Qazaxıstan Respublikasının Nursultan Nazarbayev Dinlərarası və Sivilizasiyalararası Dialoqun İnkişafı Mərkəzi | 18 may Real vaxt rejimində (Online) | Beynəlxalq Konfrans | Konfransda Mərkəzin icraçı direktoru Rəvan Həsənov Azərbaycandakı multikultural və tolerant mühit, dövlət başçısı İlham Əliyev tərəfindən həyata keçirilən multikulturalizm siyasəti, eləcə də Azərbaycan multikulturalizm modeli haqda ətraflı məlumat verib. Mədəniyyətlər və sivilizasiyalar arasında səmərəli dialoqun qurulması məqsədilə Azərbaycan Respublikasının təşəbbüsü ilə irəli sürülmüş "Bakı Prosesi"ndən bəhs edib. 30 il davam edən işğal dövründə ermənilərin Qarabağda törətdikləri dağıntılar, vandalizm aktları haqqında danışıb |

| | | | | | |
|---|---|---|---|---|---|
| **7.** | “Qayıdış hüququ: Humanitar və hüquqi aspektləri” mövzusunda seminar keçirilmişdir | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Qərbi Azərbaycan İcması | 23 iyun<br>Real vaxt rejimində (online) | Seminar | Seminarda Rumınıya, Özbəkistan, Rusiya Federasiyası, Gürcüstan, Braziliya, ABŞ, Türkiyə, Bolqarıstan, Hindistan və Azərbaycan universitetlərindən 200 nəfərə yaxın tələbənin iştirakı ilə Qərbi Azərbaycan ərazisindən Azərbaycanlıların kütləvi deportasiyası, geri qayıtmaq hüququ ilə bağlı İcmanın sözcüsü Ülviyyə Zülfüqar çıxış etmişdir. Seminar “Azərbaycan multikulturalizmi” fənninin tədrisi layihəsi çərçivəsində keçirilmişdir |
| **8.** | “Dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqi, anlaşma və sülh: Yəhudi icmalarının baxışları” mövzusunda dəyirmi masa keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Vyana Yəhudi Etiqad İcması, Azərbaycan Respublikasının Avstriyadakı Səfirliyi | 24 iyun<br>Avstriya (Vyana) | Beynəlxalq Dəyirmi masa | Dəyirmi masada Azərbaycan və İsrailin Avstriyadakı səfirləri, Multikulturalizm Mərkəzinin rəhbərliyi, Azərbaycan və Avstriya yəhudi icmalarının rəhbər şəxsləri və icma nümayəndələri iştirak ediblər. Tədbir çərçivəsində Azərbaycandakı yəhudi icmasının həyatını əks etdirən fotosərgi də nümayiş olunub. Səfər çərçivəsində Azərbaycanda fəaliyyət göstərən yəhudi icmaları ilə Avstriyadakı yəhudi icmalarının qarşılıqlı fəaliyyəti ilə bağlı görüşlər və müzakirələr dəkeçirilib |

| | | | | | |
|---|---|---|---|---|---|
| **9.** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi “Dinlərarası harmoniya vasitəsilə dünyada sülhün bərqərar olması və davamlı inkişafı” mövzusunda G20 Dinlərarası Dialoq Forumunda təmsil olunub | G20 Dinlərarası Dialoq Forumu, BBMM | 5-7 sentyabr Hindistan, Pune şəhəri | Qlobal Forum | Rəvan Həsənov Forumun “Sosial birlik, sabit cəmiyyətlər və din” panelində “Azərbaycan Multikulturalizm modeli” mövzusunda məruzə edib. O, Azərbaycandakı multikultural və tolerant mühit, həyata keçirilən multikulturalizm siyasəti haqda ətraflı məlumat verib |
| **10.** | “Qazaxıstan Respublikasında vətəndaş identikliyi: Mövcud vəziyyət və perspektivlər” mövzusunda Beynəlxalq Konfransda iştirak edilmişdir | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Qazaxıstan Etno-siyasi Tədqiqatlar İnstitutu | 1 noyabr Qazaxıstan (Astana) | Beynəlxalq Konfrans | Konfransda Mərkəzin Tədris şöbəsinin müdiri İrina Kunina konfransın Almaniya, Qazaxıstan, Gürcüstan, Türkiyə və Polşanın beyin mərkəzlərinin mütəxəssislərinin və araşdırmaçıların qatıldıqları “Vahid millətin formalaşmasına əsas yanaşmalar” mövzusundakı panel iclasında “Multikultural cəmiyyətdə vətəndaş identikliyinin formalaşmasında Azərbaycanın təcrübəsi” adlı məruzə ilə çıxış edib |
| **11.** | Rumıniyanın Aleksandr İohan Kuzi adına Yassı Universitetinin Azərbaycan Multikulturalizm Mərkəzində “Azərbaycan - Xəzər dənizinin sahilində cənnət” mövzusunda dəyirmi masa keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Aleksandr İohan Kuzi adına Yassı Universiteti | 3 noyabr Rumıniya (Yassı şəhəri) | Dəyirmi masa | Rumıniyanın Aleksandr İohan Kuzi adına Yassı Universitetinin yaranmasının 163-cü ildönümünə həsr olunan tədbirlər çərçivəsində Azərbaycan Multikulturalizm Mərkəzi və universitetin Slavyanşünaslıq kafedrasının təşkilatçılığı ilə keçirilən tədbirdə |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | Azərbaycan Multikulturalizmi Mərkəzinin Rumıniya nümayəndəliyinin direktoru, dosent Lyudmila Bejenaru “Azərbaycan və Rumıniya: dostluq, dialoq və etimad münasibətləri səhifələri” adlı məruzə ilə çıxış edib |
| **12.** | Ərciyəz Universitetinin (Türkiyə), Müqəddəs Kliment Oxridski adına Sofiya Universitetinin (Bolqarıstan), Aleksandr İohan Kuzi Universitetinin (Rumıniya), Paraiba Federal Universitetinin (Braziliya), Şri Şri Universitetinin (Hindistan), Çeçenistan Dövlət Pedoqoji Universitetinin (Rusiya), eləcə də Özbəkistan, Çindən olan tələbə və professorların iştirakı ilə “Zəfər Günü”nə həsr olunmuş seminar keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 7 noyabr<br>Real vaxt rejimi (Onlayn) | Seminar | Seminara yüzdən çox iştirakçı qatılmışdır. Xarici tələbə və professorlara Qarabağ zəfəri haqqında ətraflı məlumat verilmişdir. Eyni zamanda Qarabağ və Şərqi Zəngəzur ərazisində dağıdılmış mədəni irsimiz ilə bağlı təqdimat keçirilmişdir |
| **13.** | ABŞ-ın Corc Vaşinqton Universitetində tanınmış alman alimi Mixael Raynhard Hessin “Şuşa irsi: Azərbaycanın mədəniyyət paytaxtının tarixi və inkişafı” və “Qarabağ XIII əsrdən 1920-ci ilədək. Azərbaycan tarixini vərəqləyərkən” kitablarının təqdimatı olub | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Azərbaycanın ABŞ-dakı Səfirliyi, Corc Vaşinqton Universiteti | 8 noyabr<br>ABŞ (Vaşinqton) | Təqdimat | Təqdim olunan kitablarla yanaşı Qarabağ Zəfəri, Tarixi mədəni irsimiz haqqında da tədbir iştirakçılarına geniş məlumat verilib. Tədbirin bədii hissəsində milli instrumental musiqi nümunələrimiz ifa edilib və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | tərəfindən hazırlanmış “Şuşanın mədəni inciləri” adlı fotosərgi nümayiş etdirilib |
| **14.** | Yaponiyanın paytaxtı Tokio şəhərində yerləşən Seijo Universitetinin Hüquq fakültəsində Azərbaycan Multikulturalizm modeli ilə bağlı xüsusi mühazirə keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Seijo Universiteti | 22 noyabr Yaponiya (Tokiyo) | Mühazirə | Mərkəzin müəllimi Əlibəy Məmmədov tərəfindən foto və video görüntülərlə təqdim olunan mühazirədə yaponiyalı müəllim və tələbələrə Azərbaycanın coğrafiyası, tarixi, iqtisadiyyatı, mədəniyyəti, 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatları haqqında məlumat verilib. Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa, Xankəndi səfərləri, bu şəhərlərdə Azərbaycan bayrağının dalğalanması, tarixi ədalətin bərpasından danışılıb |
| **15.** | İvan Cavaxişvili adına Tbilisi Dövlət Universitetində “Müxtəliflik bizim sərvətimizdir” adlı tədbir keçirilib | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, “Alyans” Azərbaycanlı Gənclər Mərkəzi | 7 dekabr Gürcüstan, (Tbilisi) | Seminar | Tədbirdə Azərbaycan multikulturalizm modeli haqqında çıxışlarla yanaşı Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin nəşrləri sərgilənib və iştirakçılara təqdim edilib |
| **16.** | “Cədidlər: Milli kimlik, müstəqillik və dövlətçilik ideyaları” mövzusunda Beynəlxalq Konfransda Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi təmsil olunub | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi | 11-12 dekabr Özbəkistan (Daşkənd) | Beynəlxalq Konfrans | Özbəkistan Elmlər Akademiyası, Türk Dövlətləri Təşkilatı və Özbəkistan Respublikasının Kütləvi İnformasiya Vasitələrinə Dəstək İctimai Fondunun birgə təşkilatçılığı ilə keçirilmiş |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | Beynəlxalq Konfransda Azərbaycan nümayəndə heyətini AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin başçılığı ilə Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının sektor müdiri Fuad Axundov, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Ülkər Səttarova və Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədr müavini Gülşən Paşayeva təmsil etmişlər |

## III bölmə

## Tədris İstiqaməti

**I.** 2023-cü ildə ölkəmizdəki və xarici ölkələrdəki ali təhsil müəssisələrində bakalavriat səviyyəsində “Multikulturalizmə giriş”, magistratura səviyyəsində isə “Azərbaycan multikulturalizmi” adlı fənlər tədris proqramlarına daxil edilmişdir. 2023-cü ilin sonunadək “Azərbaycan multikulturalizmi” fənni dünyanın 26 və Azərbaycanın 44 nüfuzlu ali məktəbində tədris olunub.

**“Multikulturalizmə giriş” və “Azərbaucan Miltikulturalizmi” fənnlərinin tədrisi layihəsi**

***2023-cü ildə tədrisin təşkil edildiyi xarici universitetlər***

| № | Universitetin adı | Ölkə | Tarix | Tədris aparan şəxs |
|---|---|---|---|---|
| 1. | Ural Federal Universiteti | Rusiya | Aprel – İyun, 2023-cü il | Prof. Aleksandr Nesterov |
| 2. | Vrotslav Universiteti | Polşa | Mart – İyun, 2023-cü il | Dr. İlahə Kərimova |
| 3. | Tbilisi Dövlət Universiteti | Gürcüstan | Mart – İyun, 2023-cü il | Dr.Zurab Qoseridze |
| 4. | Şri Şri Universiteti | Hindistan | Fevral – Aprel,2023-cü il | Dr. Kənan Məmmədov |
| 5. | Aleksandru İoan Kuza Universiteti | Rumıniya | Fevral- İyun, 2023-cü il | Prof. Ludmila Bejenaru |
| 6. | Hokkaydo Universiteti | Yaponiya | Oktyabr- Dekabr, 2023-cü il | Dr.Əlibəy Məmmədov |
| 7. | Erciyes Universiteti | Türkiyə | Oktyabr – Dekabr, 2023-cü il | Prof. Qafar Mediyev |

| | | | | |
|---|---|---|---|---|
| **8.** | K.Oxridski adına Sofiya Universiteti | Bolqarıstan | Oktyabr – Dekabr, 2023-cü il | m.Sofiya Şiqayeva |
| **9.** | Aleksandru İoan Kuza Universiteti | Rumıniya | Oktyabr – Dekabr, 2023-cü il | Prof. Ludmila Bejenaru |

**Qeyd:** Azərbaycan Respublikasının Təhsil nazirinin 19.08.2019-cu il tarixli, F-148 nömrəli əmrinə əsasən ölkədaxili bütün ali təhsil məktəblərində "Multikulturalizmə giriş" fənni bakalavr pilləsi üçün əsas fənn olaraq tədris proqramına daxil edilmişdir. Eyni zamanda "Azərbaycan multikulturalizmi" adlı fənn 38 ölkədaxili universitetdə magistr pilləsində tədris olunur.

**II.** Tədrisin keyfiyyətinin yüksəldilməsi və müəllimlərin bilik səviyyəsinin artırılması məqsədilə "Multikulturalizmə giriş" və "Azərbaycan Multikulturalizmi" fənlərini tədris edən müəllimlərə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi tərəfindən ildə iki dəfə, yaz və qış semestrində treninqlər təşkil olunmuşdur. Treninqi uğurla bitirən müəllimlərə müvafiq sertifikatlar təqdim edilmişdir.

18.04.2023 - 13.05.2023-cü il tarixləri aralığında təşkil olunmuş treninqlərdə aşağıdakı universitetlərdən və kolleclərdən olan müəllimlər iştirak etmişdir:

1. Azərbaycan Dillər Universiteti
2. Bakı Dövlət Universiteti
3. Naxçıvan Dövlət Universiteti
4. Gəncə Dövlət Universiteti
5. Bakı Mühəndislik Universiteti,
6. Mingəçevir Dövlət Universiteti
7. Azərbaycan Dövlət Pedaqoji Universiteti
8. Azərbaycan Dövlət Pedaqoji Kolleci

**Bu treninqlərdə ümumilikdə 28 müəllim iştirak etmişdir.**

18.11.2023 - 16.12.2023-cü il tarix aralığında təşkil olunmuş treninqlərdə aşağıdakı universitetlərdən olan müəllimlər iştirak etmişdir:

1. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
2. Azərbaycan Dillər Universiteti
3. Bakı Slavyan Universiteti
4. Odlar Yurdu Universiteti
5. Azərbaycan Dövlət Pedaqoji Universiteti
6. Azərbaycan Memarlıq və İnşaat Universiteti
7. Azərbaycan Universiteti
8. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası
9.Bakı Biznes Kooperasiya Kolleci
10.Qərbi Kaspi Universitetinin Kolleci
11.Sumqayıt Musiqi Kolleci
12.ADMİ nəzdində Humanitar Kollec
13.Azərbaycan Milli Elmlər Akademiyası

**Bu treninqlərdə ümumilikdə 32 müəllim iştirak etmişdir.**

**III.** Tələbələrin bilik və bacarıqlarının səviyyəsinin müəyyənləşdirilməsi, eyni zamanda, onların bu fənnin tədrisi ilə bağlı sual, təklif və iradlarının öyrənilməsi məqsədilə Azərbaycanda ali məktəblərin bakalavr səviyyəsində tədris edilən “Multikulturalizmə giriş” fənninin monitorinqi həyata keçirilmişdir. Tədris şöbəsinin təkilatçılığı ilə monitorinqlər, yaz semestrində 12.04.2023-cü ildən 25.04.2023-cü il tarixinədək aşağıda adları qeyd olunan universitetlərdə həyata keçirilmişdir:

1.Azərbaycan Memarlıq və İnşaat Universiteti
2.Bakı Dövlət Universiteti,
3.Azərbaycan Turizm və Menecment Universiteti,
4.Bakı Avrasiya Universiteti
5.Bakı Slavyan Universiteti

Monitorinqlər qış semestrində 11.10.2023-cü il tarixindən 30.11.2023-cü il tarixinədək aşağıda adları qeyd olunan universitetlərdə həyata keçirilib:

1.Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası
2.Azərbaycan Dillər Universiteti
3.Azərbaycan Kooperasiya Universiteti
4.Azərbaycan Milli Konservatoriyası
5.Odlar Yurdu Universiteti

**IV.** Xarici ölkə universitetlərində "Azərbaycan Multikulturalizmi" fənninin tədrisi layihəsinin həyata keçirilməsi məqsədilə, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi regionun bir sıra qabaqcıl ali məktəbləri ilə ikitərəfli danışıqlar aparmış, nəticə olaraq aşağıda adları qeyd olunan ölkələrlə müqavilələrin imzalanması planlaşdırılır.

1. İNHA Universiteti (Cənubi Koreya)
2. İon Kryagu adına Kişinyov Pedaqoji Universiteti (Moldova)
3. Tianshu Pedaqoji Universiteti (Çin)
4. Çeçen Pedaqoji Universiteti (Rusiya)

**IV bölmə**

**BBMM tərəfindən 2023-ci ildə hazırlanan və çap edilən nəşrlər**

| № | Nəşrin adı | Tarix | Nəşrin dili | Qeydlər |
|---|---|---|---|---|
| **1.** | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin “International Journal of Multiculturalism” (Beynəlxalq Multikulturalizm Jurnalı) adlı beynəlxalq elmi jurnalının iki sayı nəşr edilib | Aprel- oktyabr | İngilis dili | Mərkəz tərəfindən ildə iki dəfə olmaqla buraxılan elmi jurnal regionda bu istiqamətdə ilk elmi nəşr sayılır. Bütün beynəlxalq standartlara uyğun olaraq hazırlanan elmi nəşrin redaksiya heyəti bu sahədə tanınmış xarici mütəxəssislərdən formalaşıb |
| **2.** | “Qarabağın və Şərqi Zəngəzurun Alban abidələri” kitabı ingilis dilində hazırlanaraq çap edilib | İyul | İngilis dili | Kitabın yazılması Azərbaycan tarixi və onun ən zəngin mərhələlərindən birini təşkil edən alban xristian irsi və bu irsin ən zəngin nümunələrini yaşadan Qarabağ və Şərqi Zəngəzurun alban abidələrinin tarixi keçmişi və bugünkü vəziyyəti, onların falsifikasiya edilməsi faktlarının geniş oxucu auditoriyasına çatdırılması, bölgənin bütün alban abidələrinin, ümumi tarixi arayış verilməklə bir nəşrdə toplanması zərurətindən irəli gəlib.İngilis dilində nəşr olunan kitab xarici tədqiqatçılar üçün də mühüm mənbə olacaqdır |
| **3.** | “Həqiqətin Onomastikası” kitabı rus dilində nəşr edilmişdir | iyul | Rus dili | Kitab indiki Ermənistan Respublikası ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması faktlarına həsr edilib. Prezident İlham |

| | | | | |
|---|---|---|---|---|
| | | | | Əliyevin 2020 -ci il iyun ayının 3-də Tərtər Olimpiya İdman Kompleksinin açılışı zamanı etdiyi çıxışda indiki Ermənistan Respublikası ərazisindəki coğrafi adların mütləq əksəriyyətinin Azərbaycan mənşəli olması, bu mövzunun tədqiqi və təbliğinə dair Azərbaycanın alim və mütəxəssislərinə verdiyi tövsiyəyə əsasən, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) təşkilatçılığı və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərbaycan Dillər Universitetinin tarixçi alimləri, tarixi toponimlər, dilçilik və xəritə çəkmə üzrə təcrübəli 28 mütəxəssislərinin cəlb olunması ilə “Həqiqətin onomastikası” adlı kitabı hazırlanaraq nəşr edilib. Cari ildə kitab rus dilində də nəşr olunmuşdur. Daha əvvəl kitabın Azərbaycan və ingilis dillərində nəşri işıq üzü görmüşdü |
| **4.** | “Həqiqətin Onomastikası – 2 : Qarabağ və Şərqi Zəngəzur” adlı kitab nəşr edilib | İyul | Azərbaycan dili | Kitab Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində tarixi-coğrafi adların dəyişdirilməsi və saxtalaşdırılması cəhdlərinə həsr edilib. Bu ərazilərdə təxminən 900-dən çox yer adlarının |

| | | | | |
|---|---|---|---|---|
| | | | | saxtalaşdırılmasına cəhd edilib. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) təşkilatçılığı və Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident Kitabxanasının, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin, Azərbaycan Dillər Universitetinin tarixçi alimləri, tarixi toponimlər, dilçilik və xəritəçəkmə üzrə təcrübəli mütəxəssislərinin cəlb olunması ilə layihə icra olunub. Kitabın gələcəkdə ingilis və rus dillərinə tərcümə olunaraq nəşr olunması planlaşdırılır |
| **5.** | Azərbaycan ədəbiyyatının incilərindən sayılan “Əli və Nino” romanı Tat dilinə tərcümə olunaraq Mərkəz tərəfindən nəşr edilmişdir | Avqust | Tat dili | Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi hər il Azərbaycanda yaşayan azsaylı xalqların dillərində müxtəlif nəşrlər çap edir. Azərbaycan ədəbiyyat nümunələrinin azsaylı xalqların dillərində nəşri etnik icmaların təklifləri əsasında həyata keçirilən layihədir. Qeyd etmək lazımdır ki, “Əli və Nino” romanı 2022-ci ildə Mərkəz tərəfindən ləzgi, talış və udi dillərinə də tərcümə olunaraq nəşr edilmişdir |
| **6.** | “İslamofobiya” Beynəlxalq Konfransın elmi məqalələri nəşr edilmişdir | Sentyabr | İngilis dili | Cari ilin 15-16 mart tarixlərində Bakı şəhərində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin, Beynəlxalq Münasibətlərin Təhlili |

| | | | | |
|---|---|---|---|---|
| | | | | Mərkəzinin və G20 Dinlərarası Dialoq Assosasiyasının birgə təşkilatçılığı ilə 32 ölkənin iştirakı ilə “Beynəlxalq İslamofobiya ilə Mübarizə Günü”nə həsr olunmuş elmi konfrans keçirilmişdir. Daha sonra konfrasda iştirak edən məruzəçilərin məqalələri ingilis dilində Mərkəz tərəfindən nəşr edilmiş və yayılmışdır |
| **7.** | “Qafqaz Albaniyasının etno-mədəni irsi” elmi jurnalın 4-cü buraxılışı çap olunmuşdur | Dekabr | Azərbaycan, ingilis, rus-dilləri | Elmi jurnalda Qafqaz Albaniyasının tarixi, arxeoloji, etnoloji, etnoqrafik, memarlıq, mənbəşünaslıq, epiqrafika, linqvistika və numizmatika sahələrində bir sıra problemli məsələlərin araşdırıldığı məqalələr daxil edilib. Rusiya, Gürcüstan, Cənubi Koreya, İtaliya və Azərbaycan alimlərinin araşdırmalarından ibarət topluda ermənilərin Qafqaz Albaniyası irsinin saxtalaşdırması faktlarına da geniş diqqət yetirilib |
| **8.** | “Qafqaz Diyarının Xəritəsi-1847” hərbi topoqrafik xəritəsi və izahlı kitabı nəşr edilmişdir | Dekabr | Azərbaycan dili | 1847-ci ildə Tiflis Əlahiddə Qafqaz korpusunun Baş Qərargahında hazırlanmış “Qafqaz Diyarının Xəritəsi”ni ilk dəfə olaraq nəşr edilmişdir. Bu xəritə XIX əsrin əvvəllərində, həm də ruslar tərəfindən tərtib olunduğu üçün bədnam qonşularımızın əsassız iddialarına tutarlı cavab vermək üçün mühüm əhəmiyyətə malik elmi |

| | | | | |
|---|---|---|---|---|
| | | | | mənbədir. Xəritəyə əsasən, indiki Ermənistan ərazisindəki bütün coğrafi toponimlər demək olar ki hamısı Azərbaycan mənşəlidir. Layihənin həyata keçməsində Mərkəz, Qərbi Azərbaycan İcması, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Prezident Kitabxanası, Geodeziya və Kartoqrafiya Agentliyi ilə birgə çalışmışdır |
| **9.** | “Azərbaycan Albanşünaslığının tarixinə dair” biblioqrafiya nəşr edilmişdir | Dekabr | Azərbaycan, rus və ingilis dillərində | Professor Kərim Şükürovun müəllifliyi ilə Qafqaz Albaniyası irsinin öyrənilməsi baxımından dünya üzrə tədqiqatlar kontekstində xronoloji biblioqrafiyanın ilk dəfə 3 dildə nəşri alim və araşdırmaçılar üçün xüsusi önəm daşıyır |

## V bölmə
## BBMM-in fəaliyyətinin KİV-də işıqlanması

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin 2023-cü il ərzində fəaliyyəti, layihələr çərçivəsində həyata keçirdiyi tədbirlər müntəzəm olaraq Azərbaycan Televiziyası, CBC Azərbaycan, ATV və Real TV tərəfindən işıqlandırılıb. Bundan əlavə İTV, Xəzər , Space, ARB 24 və Mir-Azərbaycan telekanallarında Mərkəzin həyata keçirdiyi tədbirlərlə bağlı toplam 64 televiziya xəbəri, müsahibə və veriliş hazırlanıb nümayiş olunub. Eyni zamanda, Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin "Əsas məsələ" proqramında 5 dəfə, Real TV-nin "Real müsahibə" verilişində 2 dəfə, CBC Azərbaycan televiziyasının "Qlobal diskussiya" verilişində 3 dəfə, eləcə də əksər Azərbaycan telekanallarının müxtəlif siyasi proqramlarında dəfələrlə BBMM-in rəhbərliyi, əməkdaşları və xarici qonaqları müvafiq mövzularla bağlı çıxış ediblər.

"azertag.az", "azerbaijan-news.az", "yeniazerbaycan.com", "ikisahil.az", "report.az", "oxu.az", "milli.az", "moderator.az", "modern.az", "525.az", "mediapost.az", "az.edu.az", "Tehsil.biz", "missiya.az", "atributinfo.az", "veteninfo.az", "xeberal.az", "adalet.az", "apa.az", "globalinfo.az", "trend.az", "sia.az", "Azerforum.com", "qafqazinfo.az", "xalqqezeti.az", "publika.az", "far.az" "baymedia.az", "yenicag.az", "azxeber.az", "cebheinfo.az", "axar.az", "unikal.az", "redactor.az", "ajmedia.info", "qaynarinfo.az", "aztime.az" və digər saytlar il ərzində BBMM-in ölkə daxilində və xaricdə keçirdiyi konfranslar, görüşlər haqda məlumatları, yerli və xarici alimlərin, mütəxəssislərin müsahibələrini, təhlillərini - ümumilikdə 221 xəbəri davamlı olaraq yayıblar.

2023-ci il ərzində ölkə ərazisində "Azərbaycan", "Xalq qəzeti", "Yeni Azərbaycan", "Bakinskiy raboçiy", "İki Sahil", "525-ci qəzet" və "Səs" qəzetlərində məqalə və məlumatlar dərc olunub.

2018-ci ilin oktyabr ayından etibarən yayımlanan və BBMM-in Azərbaycan Televiziyası (AzTV) ilə birgə telelayihəsi olan "Multikulturalizm" verilişi cari ildə də ərzində davam edib. 2023-cü ildə "Multikulturalizm" verilişinin 10 buraxılışı yayımlanıb. Verilişlər 44 günlük Vətən müharibəsində milli birlik mövuzusuna, Füzuli şəhərində ermənilər tərəfindən dağıdılan mədəni irsimizə  və Azərbaycanın apardığı quruculuq işlərinə, XIII Beynəlxalq Multikulturalizm Qış Məktəbinin fəaliyyəti və nəticələrinə, Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə, Türk dünyasının mədəniyyət paytaxtı Şuşaya, Qubanın Qırmızı qəsəbəsində yaşayan dağ yəhudilərinə, Tərtərin Talış kəndində ermənilər tərəfindən dağıdılan mədəni irsimizə və Azərbaycanın apardığı quruculuq işlərinə həsr olunub. Həmçinin verilişlərdə Multukulturalizm Mərkəzinin "Qafqaz

Albaniyasını öyrənirik" layihəsi, eləcə də Qəbələnin Nic qəsəbəsindəki alban abidələrindən, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi ilə birgə təşkil etdiyi “İraq türkmanları və Türk dünyası: Tarixi yaddaşın bərpası” mövzusunda beynəlxalq elmi-praktik konfransın işi və bu istiqamətdəki mədəni əlaqələrindən bəhs edilib.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin 2023-cü il ərzində fəaliyyəti barədə bütün məlumatlar Mərkəzin 3 dildə - azərbaycan, rus və ingilis dillərində yayılan http://multikulturalizm.gov.az rəsmi saytında (221 dəfə), Mərkəzin feysbuk səhifəsinində 3 dildə - Azərbaycan, rus və ingilis (481 dəfə), rəsmi tviter səhifəsi (211 dəfə), rəsmi instaqram səhifəsi (182 dəfə) və rəsmi yutub (81 dəfə) səhifəsində yerləşdirilib.

Cari il ərzində Azərbaycan multikulturalizmi ilə bağlı, eyni zamanda BBMM-in təşkilatçılığı ilə keçirilən beynəlxalq tədbirlər haqda ABŞ, Türkiyə, Türkmənistan, Özbəkistan, Rumıniya, İsrail və İraqın xəbər saytlarında, habelə televiziyalarında müxtəlif dillərdə məqalələr və süjetlər yer alıb.

multiculturalaz

multiculturalismbaku

bbmm_multikulturalizm

@bakuinternationalmulticult7889